**Xüsusi rabitə ilə bağlı bəzi məsələlər haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Hökumət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı" təsdiq edilsin (Əlavə 1).

2. "Xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı" təsdiq edilsin (Əlavə 2).

3. "Mobil xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı" təsdiq edilsin (Əlavə 3).

4. "Dövlətlərarası hökumət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı" təsdiq edilsin (Əlavə 4).[*]

5. Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti bu Fərmanda nəzərdə tutulmuş xüsusi rabitə növlərinin fəaliyyətini təmin etsin.

6. Müəyyən edilsin ki, bu Fərmanla təsdiq olunmuş 1—4-cü əlavələrdə nəzərdə tutulmayan şəxslər beynəlxalq və yerli əhəmiyyətli, kütləvi ictimai, idman, elm, təhsil, mədəniyyət və incəsənət tədbirlərinin təşkili və keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidməti rəisinin tapşırığına əsasən, tədbirin davam etdiyi müddətə müvəqqəti olaraq xüsusi rabitə ilə təmin edilə bilərlər.

7. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

7.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.2. bu Fərmanla təsdiq olunmuş 1—4-cü əlavələrdə nəzərdə tutulmayan şəxsin xüsusi rabitə ilə təmin edilməsi zərurəti əsaslandırıldığı halda müvafiq normativ hüquqi aktın layihəsini "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu və Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 iyul tarixli 483 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə" ilə müəyyən edilmiş qaydada hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.3. xüsusi rabitə növlərindən istifadə qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla üç ay müddətində müəyyən etsin;

7.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını iki ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

7.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

7.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

8. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

9. "Hökumət və xüsusi dövlət rabitəsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 7 fevral tarixli 583 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 72, № 12, maddə 1249; 2017, № 3, maddə 380, № 11, maddə 2001; 2018, № 5, maddələr 911, 961, № 6, maddə 1207) ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 11 aprel 2019-cu il
№622

Azərbaycan Respublikası Prezidentinin
2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR
**Əlavə 1**

## HÖKUMƏT RABİTƏSİ İLƏ TƏMİN OLUNAN VƏZİFƏLİ ŞƏXSLƏRİN SİYAHISI

1. Azərbaycan Respublikasının Prezidenti.
2. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və vitse-prezidentləri.
3. Azərbaycan Respublikasının Baş naziri və onun müavinləri.
4. Azərbaycan Respublikası Milli Məclisinin sədri, onun müavinləri, komitə sədrləri, deputatlar, Milli Məclisdə deputatları çoxluq təşkil edən siyasi partiyanın sədri.
5. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri, Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətinin rəisi, Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi, Azərbaycan Respublikası Prezidentinin köməkçiləri, Azərbaycan Respublikası Prezidentinin Mətbuat katibi, Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi və onun müavinləri, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə müdirləri, Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyi rəisinin müavinləri, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin və vitse-prezidentlərinin köməkçiləri, Azərbaycan

Respublikası Prezidentinin İşlər müdirinin və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidməti rəisinin müavinləri, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində şöbə müdirləri.

6. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri, Naxçıvan Muxtar Respublikasının Baş naziri və mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri, Naxçıvan Muxtar Respublikası rayon (şəhər) icra hakimiyyətlərinin başçıları.

7. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri.

8. Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri.

9. Azərbaycan Respublikasının Milli Məclisi və Azərbaycan Respublikasının Nazirlər Kabineti aparatlarının rəhbərləri, işlər müdirləri, həmin dövlət orqanlarının aparatlarında şöbə müdirləri, Azərbaycan Respublikası Baş nazirinin Katibliyinin rəisi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri.

10. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri.

11. Azərbaycan Respublikasının Baş prokuroru və onun müavinləri.

12. Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və onların müavinləri.

13. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin qoşun növlərinin komandanları.

14. Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

15. Azərbaycan Respublikası Auditorlar Palatasının sədri.

16. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman).

17. Məhkəmə-Hüquq Şurasının sədri, Məhkəmə-Hüquq Şurası Aparatının rəhbəri.

18. Qafqaz Müsəlmanları İdarəsinin sədri.

19. Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti.

20. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri.

21. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri.

22. Milli Televiziya və Radio Şurasının sədri.

23. Azərbaycan Respublikası apellyasiya instansiyası məhkəmələrinin sədrləri, Bakı Ağır Cinayətlər Məhkəməsinin sədri.

24. Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin prezidenti və vitse-prezidentləri.

25. Heydər Əliyev Fondunun prezidenti və icraçı direktoru.

26. Heydər Əliyev Mərkəzinin direktoru.

27. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyinin direktoru.

28. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin direktoru.

29. Dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, o cümlədən dövlət adından yaradılan publik hüquqi şəxslərin aşağıdakı rəhbərləri:

29.1. Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri;

29.2. Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru;

29.3. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti;

29.4. Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin direktoru;

29.5. Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi İdarə Heyətinin sədri;

29.6. Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının İdarə Heyətinin sədri;

29.7. Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri;

29.8. Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin sədri və onun birinci müavini;

29.9. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri;

29.10. Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) İdarə Heyətinin sədri;
29.11. "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri;
29.12. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri;
29.13. "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti;
29.14. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri;
29.15. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri;
29.16. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri;
29.17. "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti;
29.18. "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri;
29.19. "Azəriqaz" İstehsalat Birliyinin baş direktoru;
29.20. "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri;
29.21. "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədri;
29.22. "Azərsilah" Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri;
29.23. "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri;
29.24. Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru;
29.25. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru;
29.26. Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktoru;
29.27. Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin direktoru;
29.28. Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin direktoru;
29.29. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri;
29.30. "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri;
29.31. Bakı Nəqliyyat Agentliyi İdarə Heyətinin sədri.
30. Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin idarə rəisləri, Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi rəisinin müavini və departament rəisləri.
31. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin baş idarə rəisləri.
32. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı, Bakı şəhər prokuroru, Bakı şəhər Baş Polis İdarəsinin rəisi.
33. Yerli icra hakimiyyəti orqanlarının başçıları.

Azərbaycan Respublikası Prezidentinin
2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR
**Əlavə 2**

## XÜSUSİ DÖVLƏT RABİTƏSİ İLƏ TƏMİN OLUNAN VƏZİFƏLİ ŞƏXSLƏRİN SİYAHISI

1. Hökumət rabitəsi ilə təmin olunan vəzifəli şəxslər.
2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə müdirinin müavinləri, sektor müdirləri, baş məsləhətçilər, böyük məsləhətçilər.
3. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi üzrə:

3.1. İşlər müdirinin köməkçisi, şöbə müdirinin müavinləri, xidmət müdirləri, sektor müdirləri;

3.2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinə tabe olan təşkilatların, təsisçisi Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi olan təşkilatların və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan dövlət büdcəsindən maliyyələşdirilən və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin şöbəsi statusuna malik olan təşkilatların rəhbərləri.

4. Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidməti üzrə:

4.1. Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidməti rəisinin köməkçisi, şöbə müdirləri və onların müavinləri;

4.2. Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətinin tabeliyində olan təşkilatların rəhbərləri.

5. Azərbaycan Respublikasının Milli Məclisi üzrə:

5.1. Milli Məclis sədrinin müşavirləri, sədrin köməkçiləri, sədr müavinlərinin köməkçiləri;

5.2. Aparat rəhbərinin müavinləri, köməkçiləri, Aparatda şöbə müdirlərinin müavinləri, sektor müdirləri;

5.3. İşlər müdirinin müavinləri və köməkçiləri, İşlər İdarəsində şöbə müdirləri və onların müavinləri.

6. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi üzrə:

6.1. Konstitusiya Məhkəməsinin hakimləri;

6.2. Aparat rəhbəri, onun müavinləri, Aparatda şöbə müdirləri, sədrin köməkçisi, Aparat rəhbərinin köməkçisi, İşlər müdiri.

7. Azərbaycan Respublikasının Ali Məhkəməsi üzrə:

7.1. Ali Məhkəmənin hakimləri;

7.2. Aparat rəhbəri, onun müavinləri, Aparatda şöbə müdirləri, sədrin köməkçisi, Aparat rəhbərinin köməkçisi, İşlər müdiri.

8. Azərbaycan Respublikasının Nazirlər Kabineti üzrə:

8.1. Azərbaycan Respublikası Baş nazirinin müşavirləri, köməkçiləri, Baş nazirin müavinlərinin köməkçiləri;

8.2. Aparat rəhbərinin müavinləri, köməkçiləri, Aparatda şöbə müdirlərinin müavinləri, sektor müdirləri, Mətbuat xidməti rəhbərinin müavinləri;

8.3. İşlər müdirinin müavinləri, İşlər İdarəsində şöbə müdirləri.

9. Naxçıvan Muxtar Respublikası üzrə:

9.1. Baş nazirin müavinləri;

9.2. Ali Məclis sədrinin müavinləri, sədrin köməkçiləri;

9.3. Ali Məhkəmənin sədri;

9.4. Naxçıvan Muxtar Respublikasının prokuroru və onun müavinləri, Naxçıvan Muxtar Respublikasının Hərbi prokuroru;

9.5. Mərkəzi Seçki Komissiyasının sədri;

9.6. İnsan hüquqları üzrə müvəkkil (ombudsman);

9.7. Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi Nümayəndəliyinin rəhbəri.

10. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası üzrə:

10.1. Mərkəzi Seçki Komissiyası sədrinin müavinləri;

10.2. Mərkəzi Seçki Komissiyasının katibləri;

10.3. Aparat rəhbəri, Katibliyin müdiri, İnformasiya mərkəzinin müdiri, Beynəlxalq əlaqələr şöbəsinin müdiri.

11. Azərbaycan Respublikasının Prokurorluğu üzrə:

11.1. Baş Prokurorluqda idarə rəisləri və onların müavinləri, müstəqil şöbələrin rəisləri, Baş İdarənin idarə və müstəqil şöbə rəisləri;

11.2. Azərbaycan Respublikası Hərbi prokurorunun müavinləri, Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda idarə rəisləri və müstəqil şöbələrin rəisləri;

11.3. Azərbaycan Respublikası Baş prokurorunun böyük köməkçiləri;

11.4. Bakı şəhəri rayonlarının, Gəncə və Sumqayıt şəhərlərinin prokurorları;

11.5. Bakı hərbi prokuroru və Sumqayıt hərbi prokuroru;

11.6. Bakı şəhər prokurorunun müavinləri.

12. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi üzrə:

12.1. Daxili Qoşunlar Komandanının müavinləri, Daxili Qoşunlar Qərargahı rəisinin birinci müavini;

12.2. baş idarə rəisləri və onların müavinləri, idarə rəisləri.

13. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi üzrə:

13.1. baş idarə rəisləri və onların müavinləri;

13.2. müstəqil idarələrin rəisləri.

14. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi üzrə:

14.1. baş idarə rəisləri və onların müavinləri;

14.2. Fövqəladə Hallar Nazirliyinin Akademiyasının rəisi və onun müavini;

14.3. müstəqil idarələrin rəisləri.

15. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi üzrə:

15.1. idarə rəisləri və onların müavinləri;

15.2. müstəqil şöbələrin müdirləri;

15.3. Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin rəhbərləri, Azərbaycan Respublikasının beynəlxalq təşkilatlardakı daimi nümayəndələri.

16. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi üzrə:

16.1. müstəqil şöbələrin müdirləri;

16.2. "Bakı Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətin direktoru.

17. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi üzrə:

17.1. müstəqil şöbələrin müdirləri;

17.2. Bakı şəhəri üzrə Baş Maliyyə İdarəsinin rəisi;

17.3. "Bakı Konqres Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətin direktoru.

18. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi üzrə:

18.1. Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi;

18.2. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının direktoru;

18.3. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının direktoru;

18.4. Azərbaycan Dövlət Akademik Musiqili Teatrının direktoru;

18.5. Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının direktoru;

18.6. Heydər Əliyev Sarayının direktoru;

18.7. Bakı Dövlət Sirkinin direktoru;

18.8. Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının direktoru;

18.9. Cəfər Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasının direktoru;

18.10. Beynəlxalq Muğam Mərkəzinin direktoru;

18.11. Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasının direktoru;

18.12. Azərbaycan Dövlət Nəşriyyatı "Azərnəşr"in direktoru;

18.13. Qobustan Milli Tarix-Bədii Qoruğunun direktoru.

19. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi üzrə:

19.1. Baş Qərargah rəisinin müavinləri;

19.2. baş idarə rəisləri və onların müavinləri;

19.3. müstəqil idarələrin rəisləri, kadrlar idarəsinin rəisi.

20. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi üzrə:

20.1. Dövlət Radiotezliklər İdarəsinin rəisi;
20.2. "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyətin baş direktoru;
20.3. "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyətin baş direktoru;
20.4. "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətin baş direktoru;
20.5. "Milli Nüvə Təhqiqatları Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin sədri.
21. Azərbaycan Respublikasının Vergilər Nazirliyi üzrə:
21.1. departament rəisləri və onların müavinləri.
22. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti üzrə:
22.1. baş idarə rəisləri və onların müavinləri;
22.2. müstəqil idarələrin rəisləri.
23. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti üzrə:
23.1. hərbi birləşmələrin rəhbərləri;
23.2. Baş Qərargah rəisinin müavini;
23.3. baş idarə rəisləri və onların müavinləri;
23.4. müstəqil idarələrin rəisləri.
24. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti üzrə:
24.1. baş idarə rəislərinin müavinləri;
24.2. müstəqil idarələrin rəisləri.
25. Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti üzrə:
25.1. baş idarə rəisləri və onlann müavinləri;
25.2. müstəqil idarələrin rəisləri.
26. Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti üzrə:
26.1. idarə rəislərinin müavinləri, müstəqil şöbələrin rəisləri;
26.2. Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyinin departament rəislərinin müavinləri;
26.3. Xüsusi Dövlət Mühafizə Xidmətinin tabeliyində "Hərbi Ovçular İttifaqı" Məhdud Məsuliyyətli Cəmiyyətin direktoru;
26.4. Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin mühafizə qruplarının rəhbərləri.
27. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti üzrə:
27.1. baş idarə rəisləri və onlann müavinləri;
27.2. müstəqil idarələrin rəisləri;
27.3. "Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətin sədri.
28 Azerbaycan Respublikasının Dövlət Gömrük Komitəsi üzrə:
28.1. idarə rəisləri və onlann müavinləri;
28.2. müstəqil idarələrin rəisləri.
29. Azərbaycan Respublikasının Mərkəzi Bankı üzrə:
29.1. İdarə Heyətinin üzvləri;
29.2. sədrin müşavirləri;
29.3. baş direktorlar.
30. Azərbaycan Respublikasının Hesablama Palatası üzrə:
30.1. Hesablama Palatası sədrinin müavinləri, köməkçiləri;
30.2. Hesablama Palatasının auditorları;
30.3. Aparat rəhbəri, onun müavinləri, Aparatda şöbə müdirləri, onların müavinləri, sektor müdirləri.
31. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Aparatı üzrə:

31.1. Aparat rəhbəri, onun müavinləri, Aparatda şöbə müdirləri;

31.2. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) köməkçisi.

32. Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının aparatlarının rəhbərləri.

33. Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında (tabeliyində) agentliklərin, fondların, xidmətlərin və onların statusuna bərabər sayılan icra hakimiyyəti orqanlarının rəhbərləri və onların müavinləri.

34. Dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, o cümlədən dövlət adından yaradılan publik hüquqi şəxslərin Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin olunan rəhbərləri və onların həmin qaydada təyin olunan müavinləri.

35. Milli Məclisdə deputatları çoxluq təşkil edən siyasi partiyanın sədr müavinləri, icra katibi və onun müavinləri, təsis etdiyi dövri mətbu nəşrin rəhbəri.

36. Məhkəmə-Hüquq Şurası üzrə:

36.1. Aparat rəhbərinin müavinləri;

36.2. Aparatda şöbə müdirləri.

37. Məhkəmələr üzrə:

37.1. Azərbaycan Respublikası apellyasiya instansiyası məhkəmələrinin sədr müavinləri, Bakı Apellyasiya Məhkəməsinin kollegiya sədrləri;

37.2. Azərbaycan Respublikası ağır cinayətlər məhkəmələrinin, inzibati-iqtisadi məhkəmələrinin sədrləri;

37.3. Bakı şəhərinin rayon (şəhər) məhkəmələrinin, Bakı Hərbi Məhkəməsinin, Sumqayıt Şəhər Məhkəməsinin, Abşeron Rayon Məhkəməsinin sədrləri;

37.4. Bakı Ağır Cinayətlər Məhkəməsi sədrinin müavini.

38. Azərbaycan Milli Elmlər Akademiyası üzrə:

38.1. vitse-prezidentlər və akademik katib;

38.2. Hüquq və İnsan Haqları İnstitutunun direktoru;

38.3. Geologiya və Geofizika İnstitutunun direktoru;

38.4. Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru;

38.5. Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun direktoru;

38.6. Abbasqulu ağa Bakıxanov adına Tarix İnstitutunun direktoru;

38.7. “Azərbaycan Milli Ensiklopediyası” Elmi Mərkəzinin direktoru;

38.8. Milli Azərbaycan Tarixi Muzeyinin direktoru.

39. Azərbaycan Respublikası Mətbuat Şurasının sədri.

40. Azərbaycan Respublikası İctimai Televiziya və Radio Yayımları Şirkətinin Baş direktoru;

41. Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri.

42. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri.

43. Azərbaycan Respublikasının Milli Depozit Mərkəzinin İdarə Heyətinin sədri.

44. Azərbaycan Respublikasının Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun direktoru.

45. Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin üzvləri.

46. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Aparatının rəhbəri.

47. Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatlan Milli Konfederasiyasının prezidenti.

48. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın katibi.

49. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyasının katibi.
50. Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının katibi.
51. Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası işçi qrupunun rəhbəri.
52. Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyası işçi qrupunun rəhbəri.
53. Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavinləri və Aparat rəhbəri.
54. Milli Televiziya və Radio Şurası Aparatının rəhbəri.
55. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti üzrə:
55.1. Şirkət prezidentinin Katibliyinin rəisi;
55.2. Sərmayələr İdarəsinin rəisi;
55.3. Marketinq və İqtisadi Əməliyyatlar idarəsinin rəisi və onun müavini;
55.4. "Neft kəmərləri" İdarəsinin rəisi;
55.5. "Azərikimya" İstehsalat Birliyinin baş direktoru;
55.6. "Azneft" İstehsalat Birliyinin baş direktoru;
55.7. "Azəriqaz" İstehsalat Birliyinin baş direktorunun müavinləri;
55.8. Heydər Əliyev adına Neft Emalı Zavodunun direktoru;
55.9. Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun direktoru.
56. "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti üzrə:
56.1. İdarə Heyəti sədrinin müavinləri;
56.2. baş direktorlar.
57. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti üzrə:
57.1. sədrin müşaviri;
57.2. Yük Daşımaları Departamentinin rəisi.
58. "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti üzrə:
58.1. Qapalı Səhmdar Cəmiyyəti prezidentinin ictimaiyyətlə əlaqələr üzrə köməkçisi;
58.2. "Azərbaycan Hava Yolları" Sərnişin Aviaşirkətinin icraçı direktoru;
58.3. Hava Limanlarının İstismarı Baş İdarəsinin rəisi.
59. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti sədrinin müavinləri və Aparat rəhbəri.
60. "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank Olmayan Kredit Təşkilatının İdarə Heyətinin sədri.
61. "Aqrar tədarük və təchizat" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri.
62. "Azəraqrartikinti" Açıq Səhmdar Cəmiyyətinin sədri.
63. "Azercell Telecom" Məhdud Məsuliyyətli Cəmiyyətin prezidenti.
64. "Azərkontrakt" Açıq Səhmdar Cəmiyyətinin sədri.
65. "Azərmətbuatyayımı" Açıq Səhmdar Cəmiyyətinin sədri.
66. "Azərsənayetikinti" Açıq Səhmdar Cəmiyyətinin sədri.
67. "Azərsu" Açıq Səhmdar Cəmiyyəti sədrinin müavinləri;
68. "Azərsun Holdinq" Məhdud Məsuliyyətli Cəmiyyətin Müşahidə Şurasının sədri.
69. "Azərsutikinti" Açıq Səhmdar Cəmiyyətinin sədri.
70. "Azər-Türk Bank" Açıq Səhmdar Cəmiyyətin İdarə Heyətinin sədri.
71. "Azneftkimyamaş" Açıq Səhmdar Cəmiyyətinin sədri.
72. "Delta Telekom LTD" Məhdud Məsuliyyətli Müəssisənin baş direktoru.
73. Gəncə Avtomobil Zavodu İstehsalat Birliyinin icraçı direktoru.
74. "Xalq Bank" Açıq Səhmdar Cəmiyyətin Müşahidə Şurasının sədri.
75. "Kapital Bank" Açıq Səhmdar Cəmiyyətin İdarə Heyətinin sədri, onun müavinləri.
76. "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətin direktoru.

77. “Paşa Holdinq” Məhdud Məsuliyyətli Cəmiyyətin direktoru, “Paşa İnşaat” Məhdud Məsuliyyətli Cəmiyyətin rəhbəri.

78. “Silk Way Holdinq” Məhdud Məsuliyyətli Cəmiyyət üzrə:

78.1. Məhdud Məsuliyyətli Cəmiyyətin prezidenti və birinci vitse-prezidenti;

78.2. Məhdud Məsuliyyətli Cəmiyyətin Maliyyə məsələləri üzrə vitse-prezidenti;

78.3. “Silk Way Helicopter Services” Məhdud Məsuliyyətli Cəmiyyətin baş direktoru.

79. Azərbaycan Ticarət və Sənaye Palatasının prezidenti.

80. Azərbaycan Milli Paralimpiya Komitəsinin prezidenti.

81. Heydər Əliyev Mərkəzi direktorunun müavinləri.

82. Azərbaycanda Atatürk Mərkəzinin müdiri.

83. “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin Texniki İstehsalat Birliyinin direktoru.

84. “MİR” Dövlətlərarası Teleradio Şirkətinin Azərbaycan Milli Nümayəndəliyinin direktoru.

85. İnterfaks-Azərbaycan İnformasiya Agentliyinin baş direktoru.

86. Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru.

87. Mərkəzi Neftçilər Xəstəxanasının baş direktoru.

88. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru.

89. Salar İmaməliyev adına Respublika Taun Əleyhinə Stansiyasının direktoru.

90. Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının baş həkimi.

91. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası sədrinin müavinləri.

92. Azərbaycan Sahibkarlıq, Özəl Elm və Yüngül Sənaye İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri.

93. Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqının Respublika Komitəsinin sədri.

94. Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq Mühafizə Orqanları Veteranları Təşkilatının sədri.

95. Rabitə İşçiləri Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri.

96. Azərbaycan Mərkəzi Koorperativlər İttifaqı (Azərittifaq) İdarə Heyətinin sədri.

97. “Azərbaycan” qəzetinin baş redaktoru.

98. Azərbaycan Bəstəkarlar İttifaqının sədri.

99. Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri.

100. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti.

101. Azərbaycan Rəssamlar İttifaqının sədri.

102. Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri.

103. Azərbaycan Teatr Xadimləri İttifaqının sədri.

104. Azərbaycan Yazıçılar Birliyinin sədri və birinci katibi.

105. Bakı Şəhər İcra Hakimiyyəti üzrə:

105.1. başçının müavinləri;

105.2. Bakı Şəhər İcra Hakimiyyəti Aparatının rəhbəri;

103.3. şöbə müdirləri.

106. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının, Nazirlər Kabinetinin, Milli Məclisinin, Baş Prokurorluğun, Daxili İşlər Nazirliyinin, Müdafiə Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinin, 112 Çevik reaksiya idarəsinin, Mülki Müdafiə Qoşunlarının, Dövlət Təhlükəsizliyi Xidmətinin, Xarici Kəşfiyyat Xidmətinin, Xüsusi Dövlət Mühafizə Xidmətinin, Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin, “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin, “Azərişıq” Açıq Səhmdar

Cəmiyyətinin, “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin, “Azəriqaz” İstehsalat Birliyinin, “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyətin növbətçiləri.

107. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının, Nazirlər Kabinetinin, Milli Məclisinin qəbul otağı, avtodayanacağı.

108. Dövlətlərarası hökumət rabitəsinin kommutatoru, beynəlxalq və şəhərlərarası danışıq sifariş masası, xüsusi dövlət rabitəsinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Heydər Əliyev Beynəlxalq Hava Limanının sorğu xidmətləri.

Azərbaycan Respublikası Prezidentinin
2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR
**Əlavə 3**

## MOBİL XÜSUSİ DÖVLƏT RABİTƏSİ İLƏ TƏMİN OLUNAN VƏZİFƏLİ ŞƏXSLƏRİN SİYAHISI

1. Azərbaycan Respublikasının Prezidenti.

2. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və vitse-prezidentləri.

3. Azərbaycan Respublikasının Baş naziri və onun müavinləri.

4. Azərbaycan Respublikası Milli Məclisinin sədri və onun müavinləri.

5. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri, Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətinin rəisi, Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi, Azərbaycan Respublikası Prezidentinin köməkçiləri, Azərbaycan Respublikası Prezidentinin Mətbuat katibi, Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi və onun müavinləri, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə müdirləri, Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyi rəisinin müavinləri, Azərbaycan Respublikası Birinci vitse-prezidentinin və vitse-prezidentlərinin köməkçiləri, Azərbaycan Respublikası Prezidentin İşlər müdirinin və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidməti rəisinin müavinləri.

6. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, onun birinci müavini, Naxçıvan Muxtar Respublikasının Baş naziri və onun birinci müavini.

7. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri.

8. Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri.

9. Azərbaycan Respublikası Milli Məclisi Aparatının, Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbərləri.

10. Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və onların müavinləri.

11. Azərbaycan Respublikasının Baş prokuroru və onun müavinləri, Azərbaycan Respublikası Baş Prokurorluğunun idarə rəisləri, Azərbaycan Respublikası Hərbi prokurorunun müavinləri, Bakı şəhər prokuroru.

12. Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti və vitse-prezidentləri.

13. Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin prezidenti və vitse-prezidentləri.

14. Milli Televiziya və Radio Şurasının sədri.

15. Qafqaz Müsəlmanları İdarəsinin sədri.

16. Heydər Əliyev Fondunun prezidenti və icraçı direktoru.

17. Heydər Əliyev Mərkəzinin direktoru və onun müavini.

18. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri.

19. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin baş idarə rəisləri, Bakı şəhər Baş Polis İdarəsinin rəisi.

20. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin strukturuna daxil olan xidmət və agentliklərin rəhbərləri, Mülki Müdafiə Qoşunlarının komandanı, baş idarə rəisləri.

21. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin qoşun növlərinin komandanları, ordu korpuslarının komandirləri, baş idarə rəisləri.

22. Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin baş idarə rəisləri.

23. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin baş idarə rəisləri və onların müavinləri.

24. Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin baş idarə rəisləri və onların müavinləri.

25. Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin idarə rəisləri və onların müavinləri, Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi rəisinin müavini, departament rəisləri və onların müavinləri.

26. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyinin direktoru.

27. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin direktoru.

28. Azərbaycan Respublikası apellyasiya instansiyası məhkəmələrinin sədrləri.

29. Dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, o cümlədən dövlət adından yaradılan publik hüquqi şəxslərin aşağıdakı rəhbərləri:

29.1. Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin sədri;

29.2. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri;

29.3. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti;

29.4. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri;

29.5. "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti;

29.6. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri;

29.7. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri;

29.8. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri;

29.9. "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti;

29.10. "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri;

29.11. "Azərsilah" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri;

29.12. "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri;

29.13. "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri.

30. Yerli icra hakimiyyəti orqanlarının başçıları.

31. Bakı Ağır Cinayətlər Məhkəməsinin sədri, Bakı Hərbi Məhkəməsinin sədri.

32. Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin rəhbərləri, Azərbaycan Respublikasının beynəlxalq təşkilatlardakı daimi nümayəndələri.